# Prezident İlham Əliyev:
# İqtisadi müstəqillik mənim siyasətimin ana xəttini təşkil edir



*Kadr islahatları labüddür, bu, qaçılmazdır. Çünki mən bunu demişəm, biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar, ilk növbədə, Vətənə bağlı olmalıdırlar, hər hansı bir xarici təsirdən azad olmalıdırlar və vətənpərvər olmalıdırlar ki, Vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan Prezidenti İlham Əliyev ölkədə genişmiqyaslı kadr islahatları aparır. Artıq dövlət başçısının imzaladığı sərəncamlarla bəzi yaşlı kadrlar vəzifələrindən azad edilib, onların yerinə yeni, gənc kadrlar təyin olunub. Həyata keçirilən kadr islahatları çərçivəsində İqtisadiyyat naziri Şahin Mustafayev Baş Nazirin müavini, Mikayıl Cabbarov isə Vergilər naziri vəzifəsindən azad edilərək İqtisadiyyat naziri təyin edilib. Bununla əlaqədar Mikayıl Cabbarovu qəbul edən dövlət başçısı ölkə iqtisadiyyatının inkişafı məsələləri ilə bağlı yeni nazirin üzərinə mühüm vəzifələr düşdüyünü bildirib.**

Qeyd edək ki, yeni təyinat alan şəxslər Prezident İlham Əliyevin komandasında uzun illər ərzində özlərini doğruldublar. Məsələn, böyük etimada layiq görülmüş Mikayıl Cabbarov əvvəllər İqtisadiyyat Nazirliyi sistemində çalışıb, nazir müavini vəzifəsini tutub. Bundan əlavə, o, son illərdə Təhsil naziri, Vergilər naziri kimi yüksək dövlət vəzifələrində işləyib. Prezident İlham Əliyev M.Cabbarovun xüsusilə Vergilər naziri kimi fəaliyyətini yüksək qiymətləndirərək bildirib ki, aparılan islahatlar nəticəsində vergilər sistemində şəffaflıq təmin edilir, biznes dairələri üçün vahid qaydalar tətbiq olunur.

Məhz sistemdə aparılmış islahatların nəticəsidir ki, bu il Vergilər Nazirliyi plandan əlavə təqribən 350 milyon manatdan çox vəsait toplayıb və bu vəsaitdən ölkədə həyata keçirilən çox geniş və ciddi sosial islahatlar zamanı istifadə olunub, sosial paketlər icra edilib. Prezidentin də dediyi kimi, Azərbaycanda 2019-cu ilin əvvəllərindən bəri tətbiq edilən sosial təşəbbüsün dünyada analoqu olmayıb. Təqdim olunmuş iki sosial paket dörd milyon iki yüz min insanı əhatə edib, minimum əməkhaqqı təxminən iki dəfə, minimum pensiya 70 faizdən çox artırılıb. Nəticədə minimum pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında birinci yerə qalxıb.

Təbiidir ki, bunlar ölkədə maliyyə imkanlarının mövcudluğu ilə bağlı olub.

Prezident İlham Əliyev hələ qarşıda ciddi vəzifələrin dayandığını da yeni İqtisadiyyat nazirinin nəzərinə çatdırıb, onun üzərinə çox məsuliyyətli vəzifə düşdüyünü bildirib. Dövlət başçısının sözlərinə görə, Azərbaycan iqtisadiyyatının bundan sonra qeyri-neft sektoru hesabına inkişafı dövlətin əsas prioriteti olacaq: “Hələ ulu öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm. Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqeyin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən Prezident kimi, ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Ona görə iqtisadi müstəqillik mənim siyasətimin ana xəttini təşkil edir. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, əlbəttə ki, bizim iqtisadi imkanımız olmalıdır”.

Azərbaycan Prezidenti əsas vəzifələrdən birinin qeyri-neft sektorunun inkişafına diqqətin artırılması olduğunu qeyd edib. Bununla belə, deyib ki, Azərbaycan iqtisadiyyatının əsasını neft-qaz sektoru təşkil edir. Bunu mənfi amil kimi qiymətləndirmək düzgün deyil. Azərbaycan məhz neft-qaz sektorunun inkişafı hesabına böyük infrastruktur layihələri icra edib, neft-qaz sektorunun gəlirləri hesabına 300 mindən çox köçkün yeni binalarda yerləşdirilib, ordumuz gücləndirilib, böyük sosial layihələr icra edilib. Azərbaycan beynəlxalq maliyyə qurumlarından, böyük dövlətlərdən asılı ola bilməz: “Ona görə iqtisadi müstəqillik mənim siyasətimin ana xəttini təşkil edir. Bu, bizə güc verir, inam verir, xalqımız təhlükəsizlik şəraitində yaşayır və biz ölkə üçün vacib olan bütün layihələri icra edirik… Ancaq biz iqtisadi inkişafımızı qeyri-neft sektoru üzərində qurmalıyıq və burada, əlbəttə ki, aparıcı rol İqtisadiyyat Nazirliyinin üzərinə düşür. Əminəm ki, İqtisadiyyat naziri kimi siz bu tapşırıqları yerinə yetirəcəksiniz”.

Azərbaycan bu gün islahatlar yolu ilə gedir. Prezident yeni iqtisadi model, onun əsas konturları haqqında özünün sonuncu andiçmə mərasimində fikir söylədiyini bildirib. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatları həmin iqtisadi modelin ayrı-ayrı elementləridir.

Prezident islahatların yaxşı nəticələr verdiyini, bu ilin doqquz ayında 100 mindən çox əmək müqaviləsinin qeydiyyata alındığını, bununla da “kölgə iqtisadiyyatı”na ciddi zərbə vurulduğunu diqqətə çatdırıb. Ona görə də vətəndaşlara üz tutaraq deyib: “Əgər hansısa sahibkar sizə, tutaq ki, 500 manat maaş verirsə və onun 250 manatını rəsmi qaydada verirsə, siz buna razı olmayın. Çünki sabah pensiya almayacaqsınız. Sosial sığorta problemi olacaq. Biz indi icbari tibbi sığortaya keçirik. Orada da problem yaranacaq”. Ancaq hələ də on minlərlə insan “kölgə iqtisadiyyatı”nda fəaliyyət göstərir. Prezident İlham Əliyev bu sahəyə çox ciddi diqqət yetirməyi tələb edib, İqtisadiyyat Nazirliyinin bu məsələnin öhdəsindən gələcəyinə əminliyini bildirib. Dövlət başçısı, eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafına fikir verilməsi, sahibkarlara yönəlmiş çirkin əllərin kəsilməsi, xüsusən dövlət məmurları və yerli icra orqanları rəhbərlərinin müdaxiləsinə, haqsız rəqabətə son qoyulması kimi tələblər irəli sürüb. “Vergidən başqa heç bir ödəniş ola bilməz”, – deyib. Haqsız rəqabət məsələsində əsasən dövlət məmurlarını günahlandırıb. “Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarırlar, bəzi hallarda şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olub ya bizneslərini satsınlar, ya da ki, çıxıb getsinlər. Buna da yol vermək olmaz, heç kimdən çəkinmədən. Mən bilirəm, sizə nazir kimi, xüsusilə Vergilər naziri kimi, bəziləri təzyiqlər göstərməyə çalışırdılar ki, bizim biznesimizə dəymə. Mən bilirəm ki, siz onların qarşısında çox mətanətlə çıxış etmisiniz. Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib ola bilməz. Bir imtiyaz var: vergini vermək, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək”.

Yeni təyin olunmuş İqtisadiyyat naziri Mikayıl Cabbarov da fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlət başçısına təşəkkürünü bildirib, daşıyacağı vəzifənin məsuliyyətini tam şəkildə dərk etdiyini deyib. O, Prezidentin rəhbərliyi, həmkar nazirlik və dövlət təsisatları ilə birlikdə ölkəmizin dayanıqlı və davamlı iqtisadi inkişafının təmin edilməsi üçün tapşırılmış prinsipləri əsas götürməklə fəaliyyət göstərəcəyini, iqtisadiyyatımızın rəqabətliliyini artırmağa, iqtisadi müstəqilliyimizi möhkəmləndirməyə, iqtisadiyyatı inkişaf etdirməyə çalışacağını söyləyib. “Sizin kimi siyasi liderin, möhtərəm cənab Prezident, hökumətində yer tutmaq mənim üçün ən böyük şərəfdir. Bir daha yüksək etimadınıza görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm”, – deyə Mikayıl Cabbarov bildirib.

Şübhəsiz ki, Azərbaycan lideri son illərdə irəli çəkilmiş müasir baxışlı kadrlardan biri kimi Mikayıl Cabbarova inanır, etimad göstərir və qarşıya qoyulan vəzifələri yüksək məsuliyyətlə icra edəcəyinə ümid edir. Bu da, əlbəttə, təsadüfi deyil. Çünki Mikayıl Cabbarov bundan əvvəl çalışdığı vəzifələrdə də kifayət qədər effektiv fəaliyyət göstərib. Məsələn, onun rəhbərlik etdiyi Vergilər Nazirliyinin xətti ilə icmal büdcəyə təkcə bu il 7 milyard 683,1 milyon manat vəsait daxil edilib, bütövlükdə, vergi daxilolmaları üzrə proqnoza 106,4 faiz əməl olunub. Qeyri-neft-qaz sektoru üzrə vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 12,6 faiz, yaxud 439 milyon manat artaraq 3 milyard 928,8 milyon manat təşkil edib.

Bundan əlavə, “kölgə iqtisadiyyatı”nın miqyasının azaldılmasına yönəlmiş vergi islahatları çərçivəsində əmək münasibətlərinin şəffaflaşdırılması xüsusi yer tutur. 2019-cu ildə qeyri-neft-qaz sektorunun özəl bölməsi üzrə fiziki şəxslərin aylıq əməkhaqlarının 8 min manatadək olan hissəsinin gəlir vergisindən azad edilməsi bu sahədə iş yerlərinin və əmək gəlirlərinin şəffaflaşmasına şərait yaradıb.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***